Azərbaycan Respublikasının
Biznes Mühiti və Beynəlxalq
Reytinqlər üzrə Komissiyası

# MEDİADA İŞIQLANDIRILMIŞ MATERİALLARIN HƏFTƏLİK MONİTORINQİ

**• 06 – 12 yanvar 2025-ci il •**

**Tarif Şurasının qərarı və “Su şəbəkəsinə qoşulma” İşçi qrupunun fəaliyyəti**

**06.01.2025**

xalqqazeti.az

**Qiymət tənzimlənməsi dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə töhfə verəcək**



Azərbaycan Prezidenti cənab İlham Əliyevin apardığı uğurlu iqtisadi islahatların davamı olaraq bir sıra kommunal xidmətlərin tarifləri və sistemə qoşulma qaydaları müəyyənləşib. Bu da təbii ki xidmətlərin keyfiyyətinin artrılmasına və biznes muhitinin yaxşılaşdrılmasına xidmət edir. Bu qərarların qəbulunda dövlət başçısının 2016-cı il 13 iyul tarxli sərəncamı ilə yaradılmış Biznes mühiti və beynəlxalq reytinqlər üzrə dövlət komissiyasının böyük rolu var. Məhz bu  komissiyanın həyata keçirdiyi fəaliyyət nəticəsində ölkəmiz son zamanlar bir sıra beynəlxalq biznes reytinq cədvəllərində ilk yerləri tutub.

Su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulma xidmətinə görə, tariflərin müəyyənləşməsi də bu sahədə xidmət keyfiyyətinin yaxşılaşdrılması baxımından boyuk əhəmiyyət kəsb edir.

Azərbaycan Dövlət Su ehtiyatları Agentliyinin təklifi nəzərə alinaraq  su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətinə görə ilk dəfə olaraq tariflər

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

təsdiq edilib. İndiyədək bu sahədə işlər dövlət tənzimlənməsi olmadan pərakəndə şəkildə fərqli məbləğlərlə həyata keçirilirdi.

Onu da qeyd edim ki, su təchizatı və tullantı sularının axıdılması üzrə təsdiq olunmuş tariflərdə əhali abonentləri üzrə qoşulma üçün həm sosial xarakterli, həm də şəhər və regionlar üzrə differensial yanaşma tətbiq olunub. Belə bir sual yarana bilər ki, niyə belə bir qərarın qəbul edilməsinin zəruriliyinə ehtiyac duyuldu. Öncə onu qeyd etmək lazımdır ki, hökmətin atdiği addimlar iqtisadi elmi nəzəri prinsiplərə uyğun olaraq atılır. Eyni zamanda sosial yanaşma öndə gəlir.Belə ki, bəzi inkşaf etmiş ölkələri çıxmaq şərti ilə dünya ölkələrinin əksəriyyətində su təchizatı dövlətin inhisarında olur. Bu baxımdan inhisarçı bazarda fəaliyyət göstərən satıcının davranışı ilə tam rəqabət bazarında fəaliyyət göstərən satıcının davranışı fərqlidir. Başqa sözlə, inhisarçı qiyməti özu müəyyənləşdirdiyinə görə, (burda inhisarçı dövlətdir) onu tam rəqabət bazarındakı satıcıdan fərqli olaraq, istehsalın həcminin artrılması deyil, optimal buraxılış həcmi maraqlandırır.

Optimal buraxılış həcmini tapan satıcı həm xərclərini minimumlaşdırır, eyni zamanda, xidmətin keyfiyyətini artırır. Nəzərə alsaq ki, burada satıcı dövlətdir, o zaman xidmətin göstərilməsində sosial yanaşmanın da prioritetlik təşkil etdiyi aydın olur. Yəni əvvələr su sistemlərinə qoşulmada müəyyən xaotik bir hal var idi. Bu hal da suyun istehlakında israfçılığa səbəb olurdu. Bu da müəyəyn problemlərə yol açırdı. Eyni zamanda xərcləri artırırdı. Dövlət qurumu xidmətdə effektivliyi artıra bilmirdi. Su sisteminə qoşulmada qeyri–muəyəynlik hökm sürürdü.

İndi isə vahid tarifin olması, su təchizatı və tullantı sularının axıdılması üzrə təsdiq olunmuş tariflərdə əhali abonentləri üzrə qoşulma üçün həm sosial yanaşmanı, həm də şəhər və regionlar üzrə diferensial yanaşmanın tətbiqini gerçəkləşdirib.

İndiyədək bu sahədə işlər dövlət tənzimlənməsi olmadan pərakəndə şəkildə fərqli məbləğlərlə həyata keçirilirdi. Beləliklə, bu qərar həm biznes muhitinin yaxşılaşdrılması baxımından təqdirəlayiqdir, həm də sahibkarlığın inkışafı üçün vacibdir və sahibkarlıq fəaliyyətində aktivliyə yol açacaqıdır. Eyni zamanda əhalinin su təchizatında xidmət keyfiyyətini artırmaqla su sisteminə qoşulmaqda şəffaflığı da təmin edəcəkdir.

İqtisadçı–ekspert Samir Heydərov bu fikirlərinin davamında su təchizatı və tullantı sularının axıdılması sisteminə

"Kommunal xidmətlər (su təchizatı)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

qoşulma xidməti ilə bağlı Tarif (qiymət) Şurasının müvafiq qərarından danışaraq bildirib ki, bu məsələdə söhbət əslində, qoşulmaların qiymətinin tənzimlənməsindən gedir. Belə ki, sözügedən sahədə indiyədək vahid tarif yox idi. Təbii ki, bu da xidmət zamanı sui-istifadə hallarına yol açırdı.

İndi isə Tarif Şurasının müvafiq qərarı ilə vahid tarif müəyyənləşdirilib. Başqa sözlə, hazırda kim su təchizatı və tullantı sularının axıdılması sisteminə qoşulursa, müvafiq qiymətlərdən istifadə edir. Bu isə deyildiyi kimi, sui-istifadə hallarını aradan qaldırır. Beləliklə, Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin təklifi nəzərə alınaraq Tarif (qiymət) Şurasının iclasında su təchizatı və tullantı sularının axıdılması sistemlərinə qoşulma xidmətinə görə ilk dəfə olaraq tariflər təsdiqlənib. Bununla da müvafiq sahədə qoşulmaların fərqli məbləğlərlə həyata keçirilməsinin qarşısı alınıb.

Samir Heydərov bildirir ki, su təchizatı və tullantı sularının axıdılması üzrə təsdiqlənən tariflərlə əhali abonentləri üzrə qoşulma üçün həm sosial xarakterli, həm də şəhər və regionlar üzrə diferensial yanaşma tətbiqi gerçəkləşdirilib. Belə ki, əhali abonentləri üçün Bakı, Sumqayıt, Xırdalan şəhərləri və Abşeron rayonu üzrə su təchizatı şəbəkəsinə qoşulmanın birdəfəlik tarifi 200 manat, digər inzibati ərazi vahidləri üzrə isə 170 manat müəyyənləşdirilib.

Göründüyü kimi, burada söhbət suyun bahalaşmasından yox, qoşulmada qiymətlərin tənzimlənməsindən gedir. Belə halda isə sosial şəbəkələrdə manipulyasiya hallarına yol verilməsi, suyun qiymətində artımın olması barədə fikirlər səsləndirilməsi təəssüf hissi doğurur. Çünki bu yöndə deyilənlər heç bir reallığa əsaslanmır. Bir sözlə, suyun qiymətinin bahalaşması qeyd edildiyi kimi, həqiqəti əks etdirmir. Burada məsələ suya qoşulmalara görə tarifləin müəyyənləşdirilməsi ilə bağlıdır.

Tullantı sularının axıdılması şəbəkəsinə qoşulma üzrə tariflər Bakı, Sumqayıt, Xırdalan şəhərləri, Abşeron rayonu üzrə 345 manat, digər inzibati ərazi vahidləri üzrə isə 290 manat səviyyəsində təsdiqlənib. Bundan başqa, sutka ərzində tələb edilən buraxılış həcmi 100 kubmetrə qədər olan tikinti obyektləri üçün su təchizatı şəbəkəsinə qoşulmanın birdəfəlik tarifi borunun diametrinden asılı olaraq 995 manat və ya 1015 manat, tullantı sularının axıdılması şəbəkəsinə qoşulmaya görə 1635 manat məbləğində müəyyənləşdirilib. Qoşulma ilə əlaqədar tikinti obyektinin vəsaiti hesabına görüləcək işlər 30 metrədək məsafəni

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

əhatə edir. Bu məsafə 30 metrdən artıq olduqda isə mövcud şəbəkə təchizatçı tərəfindən genişləndirilir və bunun üçün əlavə ödəniş tələb edilmir.
Ekspert bildirir ki, bu sahədə tənzimləmə qoşulma ilə bağlı xərcləri azaldacaq, dayanıqlı və keyfiyyətli xidmət göstərilməsinə öz töhfəsini verəcək, maliyyə şəffaflığına və uçot sisteminin təkmilləşdirilməsinə, eyni zamanda, pərakəndəliyin aradan qaldırılması ilə sahibkarlar tərəfindən investisiya qoyuluşu zamanı xərclərin əvvəlcədən hesablanmasına şərait yaradacaq.
Samir Heydərov əhaliyə göstərilən istilik təchizatı xidmətində tarif tənzimləməsi barədə isə bildirib ki, əslində, burada söhbət qiymət artımından yox, yumşaq tarif siyasəti həyata keçirilməklə optimal tarifin müəyyənləşdirilməsinin qarşıya əsas məqsəd kimi qoyulmasından gedir. Belə ki, hazırda "Azəristiliktəchizat" ASC üzrə 1 kvadratmetr sahə üçün istilik təchizatı xidmətinin maya dəyəri 1,10 manat təşkil edir. Lakin 2011-ci ildən bu sahə üzrə ödənişlər 1 kvadratmetr sahə üçün 15 qəpikdir. Aradakı qiymət fərqi dövlət büdcəsindən ayrılan subsidiya hesabına qarşılanır.
Deməli, sözügedən sahədə yuxarıda vurğulandığı kimi, söhbət qiymət bahalaşmasından deyil, yumşaq tarif siyasəti həyata keçirilməsindən gedir, optimal tarifin müəyyənləşdirilməsi qarşıya önəmli vəzifə kimi qoyulur. Bu fikri bir qədər də konkretləşdirib deyə bilərik ki, "Azəristiliktəchizat" ASC tərəfindən əhali istehlakçı qrupuna göstərilən istilik xidmətinin tarifi sayğac quraşdırılmadığı halda aylıq 1 kvadratmetr üçün 30 qəpik səviyyəsində təsdiq edilib. Sayğac quraşdırıldıqda isə 1 Qkal üçün (təqribən 40-50 kvadratmetr sahə üçün) 14,6 manat həddində müəyyənləşdirilib.
Beləliklə, Tarif (qiymət) Şurasının müvafiq qərarında vurğulandığı kimi, bu tarif tənzimləməsi dövlət büdcəsindən asılılığın azalmasına, istilik təchizatının əhatəsinin genişləndirilməsinə və xidmətin keyfiyyətinin yüksəldilməsinə şərait yaradacaq.
Ekspert təbii qaz tariflərinin tənzimlənməsi barədə isə qeyd edib ki, Azərbaycanda "mavi yanacaq" üzrə mövcud ölkədaxili orta tarif maya dəyərindən aşağıdır. Bu, iqtisadi zərərin qarşısının alınması, rentabelliliyin gerçəkləşdirilməsi və bu sahəyə investisiyaların artırılması üçün yeni tarif tənzimləməsi zərurəti yaradıb. Dövlətin sosial siyasəti və enerji resurslarından səmərəli isfadənin təşviqi məqsədilə istilik təchizatı üçün çoxmənzilli binaların mərkəzləşdirilmiş

"Kommunal xidmətlər (su təchizatı)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

qazanxanalarına verilən 1 kubmetr təbii qazın tarifi dəyişdirilməyib.
Əhali üzrə illik istehlak həcmi isə çox çüzi– 1200 kubmetr olan hissə üçün 1 kubmetr təbii qazın tarifi 0,5 qəpik (yarım qəpik, 4,2 faiz) artırılaraq 12 qəpikdən 12,5 qəpik həddində, 1200 kubmetrdən 2500 kubmetrədək olan hissə üçün 2 qəpik (10 faiz) artırılaraq 20 qəpikdən 22 qəpik, 2500 kubmetrdən çox olan hissə üçün 5 qəpik (20 faiz) artırılaraq 25 qəpikdən 30 qəpik məbləğində tənzimlənib.
Samir Heydərov daha sonra bildirib: "Bu sahədə tənzimlənmə ilə bağlı digər rəqəmlərə də diqqət yetirək. Belə ki, 1 kubmetr təbii qaz üzrə orta tarif əhali üzrə 1,3 qəpik (8,7 faiz) müəyyənləşdirilib. Tarif dəyisikliyindən sonra əhali abonentlərinin orta aylıq xərci isə 48 faiz abonent üzrə 32 qəpik, 39 faiz abonent üzrə 1 manat 43 qəpik, 13 faiz abonent (daha çox istehlak edən) üzrə 7 manat 46 qəpik nəzərdə tutulub. Bu rəqəmlərdən isə aydın görünür ki, əhalinin 48 faizi üçün 1 kubmetr təbii qazın tarifi maksimum aşağı səviyyədə –0,5 qəpik (yarım qəpik, 4,2 faiz) tənzimlənib.
Tariflərin tənzimlənməsindən danışarkən bir məqamı da xatırladaq ki, təbii qazın ölkədaxili tariflərinin dəyişməsindən sonra da respublikamızda əhali üçün qazın qiyməti qonşu ölkələrdən aşağıdır, başqa sözlə, tənzimlənmədən sonra əhali istehlakçıları üzrə təbii qazın 1000 kubmetrinin qiyməti ölkəmizdə 125-300 manat təşkil edir. Manat ekvivalenti ilə hesablanarsa, bu bu göstəricinin Gürcüstanda ən aşağı səviyyəsi 210 manat, yuxarı səviyyəsi isə 328 manatdır. Qardaş Türkiyədə 462-519 manat, Ermənistanda isə 430-618 manat həddindədir.
Onu da qeyd edim ki, elektrik istehsalında istifadə olunan təbii qazın tarifi 2 qəpik (12,1 faiz) artırılaraq 16,5 qəpikdən 18,5 qəpik səviyyəsində, sənaye və kənd təsərrüfatı sahələri üzrə 1 kubmetr təbii qazın tarifi 2 qəpik (9 faiz) artırılaraq 22 qəpikdən 24 qəpik həddində müəyyənləşdirilib".
Ekspert təbii qazın qiymət artımının elektrik enerjisinin istehsal xərclərinə təsiri və bu sahədə xidmətlərin dayanıqlılığının yüksəldilməsi zərurəti nəzərə alınaraq elektrik enerjisi üzrə yeni tariflərin müəyyənləşdirilməsinə də münasibət bildirib. O, əhali üzrə aylıq istehlak həcminin 200 kilovat-saat olan hissə üçün 1 kilovat-saat elektrik enerjisinin tarifinin 0,4 qəpik (5 faiz) artırılaraq 8 qəpikdən 8,4 qəpiyə, 200 kilovat-saatdan 300 kilovat-saatadək olan hissə üçün 1 qəpik (11,1 faiz) artırılaraq 9 qəpikdən 10 qəpiyə, 300 kilovat-saatdan çox olan hissə üçün 2 qəpik (15,4 faiz)

"Kommunal xidmətlər (su təchizatı)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

artırılaraq 13 qəpikdən 15 qəpiyə dəyişdirildiyini bildirib. O deyib ki, 1 kilovat-saat elektrik enerjisinin orta tarifi əhali üzrə 0,7 qəpik (7,8 faiz) müəyyənləşdirilib və bu dəyisikliyindən sonra əhalinin böyük hissəsi– 65 faizi üçün 1 kilovat- saat elektrik enerjisinin tarifi maksimum aşağı səviyyədə – 0,4 qəpik (5 faiz) nəzərdə tutulub.

Samir Heydərov fikirlərinin davamında qeyd edib ki, Tarif (qiymət) Şurasının müvafiq qərarları iqtisadi elmi-nəzəri prinsiplərə və sosial yanaşmaya əsaslanır. Belə ki, bəzi inkşaf etmiş ölkələri çıxmaq şərti ilə dünya ölkələrinin əksəriyyətində su təchizatı dövlətin inhisarında olur. Bu baxımdan inhisarçı bazarda fəaliyyət göstərən satıcının davranışı ilə tam rəqabət bazarında fəaliyyət göstərən satıcının davranışı fərqlidir. İnhisarçı qiyməti özu müəyyənləşdirdiyinə görə (burda inhisarçı dövlətdir), onu tam rəqabət bazarındakı satıcıdan fərqli olaraq, istehsalın həcminin artrılması deyil, optimal buraxılış həcmi maraqlandırır. Optimal buraxılış həcmini tapan satıcı həm xərclərini minimumlaşdırır, həm də xidmətin keyfiyyətini artırır. Nəzərə alsaq ki, burda satıcı dövlətdir, xidmətin göstərilməsində sosial yanaşma da prioritetlik təşkil edir.

Yəni əvvəllər su sistemlərinə qoşulmada müəyyən xaotik bir hal var idi. Bu hal da suyun istehlakında israfçılığa səbəb olurdu. Bu da müəyyə n problemlərə yol açırdı. Eyni zamanda, xərcləri artırırdı. Dövlət qurumu xidmətdə effektivliyi artıra bilmirdi. Su sisteminə qoşulmada qeyri-müəyyənlik hökm sürürdü. İndi isə vahid tarifin olması, su təchizatı və tullantı sularının axıdılması üzrə təsdiq olunmuş tariflərdə əhali abonentləri üzrə qoşulma üçün həm sosial yanaşmanı, həm də şəhər və regionlar üzrə diferensial yanaşmanın tətbiqini gerçəkləşdirib. İndiyədək bu sahədə işlər dövlət tənzimlənməsi olmadan pərakəndə şəkildə fərqli məbləğlərlə həyata keçirilib.

Bu baxımdan Tarif (qiymət) Şurasının müvafiq qərarları biznes muhitinin yaxşılaşdrılması baxımından təqdirəlayiqdir, eyni zamanda, sahibkarlığın inkişafı üçün vacibdir. Çünki bu addım sahibkarlıq fəaliyyətində aktivliyə yol açır. Bununla yanaşı, əhalinin su təchizatında xidmət keyfiyyətini artırmaqla su sisteminə qoşulmaqda şəffaflığı da təmin edir.

**Mənbə:**

https://xalqqazeti.az/az/iqtisadiyyat/209370-qiymet-tenzimlenmesi-dayaniqli-keyfiyyetli-xidmet?fbclid=IwY2xjawHoshxleHRuA2FlbQIxMQABHf5usqTuA_lftsJHP9Lbc0W3DUT7nCaeZOvqapaDUDx53R3kdkWyTtzzsA_aem_tULUyANDMqMilrZ6FY7SlQ&sfnsn=wa

“Kommunal xidmətlər (su təchizatı)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

## Digər saytlar və portallar


1. https://qafqazinfo.az/news/detail/qiymet-tenzimlenmesi-xidmet-keyfiyyetini-artiracaq-458177
2. https://unikal.az/news/463983/tarif-surasinin-muvafiq-qerarlari-bunu-demeye-esas-verir-ekspertden-aciqlama
3. https://innews.media/az/news/id-40890
4. https://konkret.az/qiymet-tenzimlenmesi-dayaniqli-ve-keyfiyyetli-xidmet-gosterilmesine-tohfe-verecek/
5. https://baki-baku.az/ekspert-tarif-surasinin-muvafiq-q%c9%99rarlari-dayaniqli-v%c9%99-keyfiyy%c9%99tli-xidm%c9%99t-gost%c9%99rilm%c9%99sin%c9%99-tohf%c9%99-ver%c9%99c%c9%99k/
6. https://www.aqreqator.az/az/iqtisadiyyat/57987140
7. https://tribunainfo.az/qiymet-tenzimlenmesi-xidmet-keyfiyyetini-artiracaq/
8. https://avtosfer.az/az/oxucu-mektublari/qiymet-tenzimlenmesi-xidmet-keyfiyyetini-artiracaq-samir-heyderov-268235
9. https://qaynarinfo.az/az/ekspert-qiymet-tenzimlenmesi-xidmet-keyfiyyetini-artiracaq
10. https://www.qanunla.az/tarif-surasinin-muvafiq-qerarlari-bunu-demeye-esas-verir-ekspertden-aciqlama/
11. https://azturkxeber.az/gundem/2955-qiymt-tnzimlnmsi-dayanql-v-keyfiyytli-xidmt-gstrilmsin-thf-verck.html
12. https://icmal.az/qiymet-tenzimlenmesi-dayaniqli-ve-keyfiyyetli-xidmet-gsterilmesine-thfe-verecek/
13. https://www.azerbaycan24.com/qiymet-tenzimlenmesi-xidmet-keyfiyyetini-artiracaq/
14. https://azadmedia.az/cemiyyet/109044-qiymt-tnzimlnmsi-dayanql-v-keyfiyytli-xidmt-gostrilmsin-tohf-verckmi-elspert-ry.html
15. https://pravda.az/news/172218
16. https://www.aqreqator.az/az/iqtisadiyyat/57987140
17. https://olaylar.az/news/iqtisadiyyat/582988
18. https://bakivaxti.az/az/posts/detail/qiymet-tenzimlenmesi-dayaniqli-ve-keyfiyyetli-xidmet-gosterilmesine-tohfe-verecek-1736162620
19. https://modern.az/tehsil/501837
20. https://moderator.az/az/cemiyyet/839585/suyun-qiymeti-ile-bali-vacib-aciqlama200-azn/


"Kommunal xidmətlər (su təchizatı)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 20.05.2024-cü tarixində təsdiq olunub.

**“Elektrik təchizatı şəbəkələrinə qoşulma” İşçi qrupunun fəaliyyəti**

**06.01.2025**

**qafqazinfo.az**

**"Azərişıq" Müştəri Məmnuniyyəti Sorğusunda yüksək nəticə əldə edib**

“Azərişıq” ASC-nin abonentlərə göstərdiyi xidmətlərin keyfiyyətini artırmaq, mövcud problemləri müəyyən etmək və vətəndaşlarla qarşılıqlı əlaqəni gücləndirmək məqsədilə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya tərəfindən Müştəri Məmnuniyyəti Sorğusu keçirilib.

“Qafqazinfo” “Ekvita” şirkəti ilə əməkdaşlıq çərçivəsində keçirilən sorğuda əhali və qeyri əhali abonentləri olmaqla, ümumilikdə 700-ə yaxın respondentin fikri öyrənilib. Sorğu Energetika Nazirliyi, Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya, Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyi ilə yanaşı müxtəlif beynəlxalq reytinq agentliklərinin iştirakı ilə baş tutub.

Sorğuda "Azərişıq" ASC-nin təqdim etdiyi fərqli xidmətlər üzrə məmnunluq səviyyəsi ölçülüb.

1. enerji təchizatı şəbəkəsinə qoşulma,
2. elektrik təchizatı sistemlərinin layihələndirilməsi və quraşdırılma işləri,
3. smart kartların bərpası və yenisinin verilməsi,
4. əhali və qeyri-əhali istehlakçısının ad dəyişdirilməsi,
5. istehlakçının balansında olan elektrik şəbəkələrinə və avadanlıqlarına texniki xidmətin göstərilməsi,
6. sayğacın zədələnməsinin araşdırılması üçün müraciətlərin qəbulu,
7. qüsurlu ödənişin bərpası.

Sorğunun nəticələrində həmçinin "Azərişıq" ASC-nin Əsas Fəaliyyət Göstəriciləri əks olunub. Enerji təchizatı şəbəkəsinə qoşulma üzrə elektron müraciətlərin cari göstəricisi 55,3%, hədəf göstərici isə 30%-dir. Sahibkarların bu xidmətlər üzrə məmnunluq səviyyəsi 98% olaraq qiymətləndirilib. Bu göstərici hədəflə üst-üstə düşür. İşlərin keyfiyyəti üzrə cari göstərici 98%, hədəf göstərici isə 95%-dir. İcra müddətlərində gecikmə halları 5% olaraq qeyd olunub və bu da 10%-lik hədəf göstəricisini üstələyir.

“Azərişıq” ASC vətəndaş məmnunluğunu təmin etmək, xidmətlərin keyfiyyətinin artırılması və ölkəmizin kommunal xidmətlər sahəsində beynəlxalq reytinqlərdə mövqeyinin daha

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub

da gücləndirilməsi məqsədilə Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya ilə əməkdaşlığı davam etdirəcək, abonentlərlə mütəmadi sorğuların keçirilməsinə şərait yaradacaq.

**Mənbə:**

https://qafqazinfo.az/news/detail/458170

**Digər saytlar və portallar**

1. https://www.azerishiq.az/news/azerisiq-asc-musteri-memnuniyyeti-sorgusunda-yuksek-netice-elde-edib
2. https://fed.az/az/diger/quotazerisiqquot-musteri-memnuniyyeti-sorgusunda-yuksek-netice-elde-edib-219585
3. https://globalinfo.az/azerisiq-musteri-memnuniyyeti-sorgusunda-yuksek-netice-elde-etdi-video/
4. https://www.manset.az/news/131441
5. https://moderator.az/az/video/839536/azerisiq-asc-musteri-memnuniyyeti-sorusunda-yuksek-netice-elde-edib-foto-video/
6. https://yenisabah.az/azerisiq-musteri-memnuniyyeti-sorgusunda-yuksek-netice-elde-edib
7. https://sitat.info/news/51595
8. https://www.gununsesi.info/az%c9%99risiq-must%c9%99ri-m%c9%99mnuniyy%c9%99ti-sorgusunda-yuks%c9%99k-n%c9%99tic%c9%99-%c9%99ld%c9%99-edib/
9. https://www.bizimyol.info/az/news/524725.html
10. https://unikal.az/news/463975
11. https://axar.az/news/toplum/933546.html
12. https://www.gununsesi.info/az%c9%99risiq-must%c9%99ri-m%c9%99mnuniyy%c9%99ti-sorgusunda-yuks%c9%99k-n%c9%99tic%c9%99-%c9%99ld%c9%99-edib/
13. https://www.azerbaycan24.com/azerisiq-musteri-memnuniyyeti-sorgusunda-yuksek-netice-elde-edib/
14. https://sitat.info/news/51595/azerisiq-musteri-memnuniyyeti-sorgusunda-yuksek-netice-elde-edib
15. https://demokrat.az/az/news/219033/azerisiq-asc-musteri-memnuniyyeti-sorgusunda-yuksek-netice-elde-edib-foto
16. https://timer.az/en/article/14601629/

“Kommunal xidmətlər (elektrik)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub

crossmedia.az

**Elektrik şəbəkəsinə qoşulma artıq daha asan: Onlayn xidmətlər vətəndaşların istifadəsində**

Nazirlər Kabinetinin qərarına əsasən, tikinti obyektlərinin elektrik şəbəkəsinə qoşulması və ya əlavə enerji (güc) alması ilə bağlı qaydalarda yeni prosedurlar müəyyən edilib. Bu yeniliklər, xüsusilə onlayn müraciət imkanları ilə fərqlənir. Vətəndaşlar "Azərişıq" ASC-nin yaratdığı informasiya sistemi vasitəsilə, həmçinin e-gov.az və e-service.azerishiq.az portalları üzərindən müraciətlərini daha rahat şəkildə həyata keçirə bilərlər.

Bu addımın məqsədi həm xidmətlərin şəffaflığını təmin etmək, həm də vətəndaşların vaxtını və resurslarını qənaətlə istifadə etməsinə imkan yaratmaqdır. Onlayn sistemlər vasitəsilə müraciət prosedurları, tələb olunan sənədlər və şəbəkəyə qoşulma şərtləri barədə ətraflı məlumat almaq mümkündür.

**İqtisadçı ekspert Emin Qəribli** bu yeniliklərlə bağlı **Crossmedia.az**-a açıqlamasında bildirib ki, elektrik şəbəkəsinə qoşulma prosesinə həm yazılı, həm də elektron formada müraciət edildiyi təqdirdə, üç gün ərzində icra olunması mümkündür. Onun sözlərinə görə, maksimum on gün ərzində şəbəkəyə qoşulma tamamlana bilər: "Şəbəkənin yerləşmə şəraiti və məsafə kimi xüsusi hallarda bu müddət bir qədər uzana bilər. Lakin statistik göstəricilərə əsasən, bu proses orta hesabla 7 gün ərzində başa çatır. Prosesin effektivliyini təmin etmək üçün müasir avadanlıqlar və texnologiyalar tətbiq olunur və daim təkmilləşdirilir".



"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub

Bir vaxtlar uzun müddət tələb edən bu proseslər, bu gün beynəlxalq təcrübələrə uyğun şəkildə daha sürətli və şəffaf həyata keçirilir. Emin Qəribli vurğulayıb ki, "Azərişıq" ASC üzərinə düşən vəzifələri yüksək səviyyədə icra edir və bu sahədə davamlı inkişaf üçün müasir texnologiyaları tətbiq etməkdədir.

Ekspert əlavə edib ki, bu təkmilləşdirmələrin məqsədi beynəlxalq biznes mühitində Azərbaycanın mövqeyini daha da gücləndirməkdir. Bu məsələlərdə müsbət dinamikaya malik olmaq, biznes mühitinin inkişafı və beynəlxalq reytinqlərdə mövqeyi yaxşılaşdırmaq üçün Biznes Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiya çalışmalar həyata keçirir. Komissiyanın Elektrik təchizatı şəbəkələrinə qoşulma işçi qrupu sözügedən istiqamətdə xüsusi tədbirlər görür. Çünki elektrik şəbəkəsinə qoşulma prosesi beynəlxalq reytinqlərdə mühüm əhəmiyyət daşıyan göstəricilərdən biridir.

Sahibkarlar arasında aparılan sorğular nəticəsində məlum olub ki, elektrik şəbəkəsinə qoşulma xidmətlərindən sahibkarlar böyük məmnunluq hissi keçirirlər. Beynəlxalq təşkilatlar da bu sahədə Azərbaycanın əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirir.

Beləliklə, yeni tətbiq edilən prosedurlar sayəsində həm vətəndaşlar, həm də sahibkarlar üçün elektrik şəbəkəsinə qoşulma daha əlçatan və sürətli olub. Azərbaycanın bu sahədə əldə etdiyi üstünlüklər ölkənin beynəlxalq mövqelərinə də müsbət təsir göstərir.

**Crossmedia.az**-a elektron prosedurların tətbiqi ilə bağlı **UNEC eksperti Yalçın Köçərli** də öz fikirlərini bölüşüb. Ekspert bildirib ki, bu yeniliklər vətəndaşların vaxtına və resurslarına



"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub

qənaət etməklə yanaşı, onların müraciətlərinin operativ həllinə şərait yaradır: "Yeni prosedurların və rəqəmsal xidmətlərin tətbiqində əsas məqsəd əhali və qeyri-əhali qruplarının müraciətlərinin operativ cavablandırılmasını, bürokratik maneələrin aradan qaldırılmasını və istehlakçı məmnunluğunun artırılmasını təmin etməkdir. Nəticədə enerji resurslarından səmərəli istifadə edilərək enerji effektivliyi artırılır, energetika subyektləri ilə istehlakçıların maraqları arasında balans qorunur".

Y.Köçərli əlavə edib ki, Azərbaycanın enerji sektorunda tətbiq edilən rəqəmsal idarəetmə sistemi ümumi enerji infrastrukturunun optimallaşdırılmasına mühüm töhfə verir: "Azərbaycanda tətbiq olunan Smart Grid texnologiyaları elektrik şəbəkələrinin idarəetmə və monitorinqində müasir yanaşmaları özündə birləşdirir".

Yalçın Köçərli qeyd edir ki, bu konsepsiya enerji təchizatında yüksək etibarlılıq, təhlükəsizlik və iqtisadi səmərəliliyin təmin edilməsinə yönəlib: "Smart Grid texnologiyası müasir idarəetmə, monitorinq və məlumatlandırma texnologiyalarını əhatə edərək, enerji istehsalçısından istehlakçıya qədər bütün proseslərin optimallaşdırılmasını təmin edir. Bu sistemlərdə SCADA texnologiyasından istifadə olunur ki, bu da məlumatların toplanması, dispetçer idarəetməsi və enerji şəbəkələrinin operativ idarə olunmasında əsas platforma rolunu oynayır".

Elektrik təchizatı şəbəkəsinə qoşulma prosesinin rəqəmsallaşdırılması çərçivəsində təqdim edilən xidmətlər arasında abonent kodunun aktiv və passiv edilməsi, tarixçə məlumatlarının verilməsi, borclarla bağlı sənədlərin təqdim edilməsi, yaşayış binalarının qeydiyyata alınması, layihələndirmə və quraşdırma işləri, enerji şəbəkəsinə qoşulma və digər çoxsaylı funksiyalar mövcuddur.

Elektron Hökumət Portalları vasitəsilə "Azərişıq" ASC tərəfindən təmin edilən xidmətlər abonentlərə vaxt itkisindən qaçmaq və müraciətlərin operativ həllində mühüm imkanlar yaradır. Yalçın Köçərli bu xidmətləri yüksək qiymətləndirərək bildirib: "Elektrik təchizatı şəbəkəsinə qoşulma ilə bağlı tələb olunan bütün məlumatlar, o cümlədən yeni qaydalar, xidmətlərin kalkulyatorları və digər zəruri detallar Azərişıq ASC-nin rəsmi internet səhifəsində geniş şəkildə təqdim olunur. Bu addımlar müştəri məmnuniyyətinin artırılmasına yönəldilmişdir."

Onun sözlərinə görə Azərbaycanın beynəlxalq biznes mühitində reytinqlərini artırmaq məqsədilə "Azərişıq" ASC tərəfindən enerji resurslarından səmərəli istifadə təmin edilir. Bu məqsədlə Biznes

"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub

Mühiti və Beynəlxalq Reytinqlər üzrə Komissiyanın Elektrik təchizatı şəbəkələrinə qoşulma işçi qrupu tərəfindən irəli sürülən tövsiyələr əsasında bir çox strukturlaşdırılmış tədbirlər həyata keçirilir: "Tənzimləyici çərçivələr və elektron xidmətlərin operativliyi vətəndaşlara və sahibkarlara elektrik təchizatı şəbəkəsinə qoşulmada şəffaflıq və sürət təmin edir. Bu yanaşma eyni zamanda ölkəmizin dayanıqlı enerji siyasətinin əsas istiqamətlərindən biridir."

Yeni prosedurlar və rəqəmsal texnologiyalar sayəsində Azərbaycanın enerji sektorunda əldə edilən irəliləyişlər həm vətəndaşların, həm də sahibkarların məmnuniyyət səviyyəsini yüksəldir. Bu tədbirlər ölkəmizin beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə də mühüm töhfə verir.

**Mənbə:**

https://crossmedia.az/az/iqtisadiyyat/energetika/elektrik-s-b-k-sin-qosulma-artiq-daha-asan-onlayn-xidm-tl-r-v-t-ndaslarin-xidm-tind

"Kommunal xidmətlər (elektrik)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 14.03.2024-cü il tarixində təsdiq olunub

**“Biznesə daxilolma” işçi qrupunun fəaliyyəti**

**09.01.2025**

metbuat.az

**Azərbaycan biznesin qeydiyyatında dünyada ən yaxşı təcrübələrdən birinə malikdir**



2024-cü ildə biznesin qeydiyyatı sahəsində bir sıra əhəmiyyətli yeniliklər edilib. Bunlardan ən əhəmiyyətlisi xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi, həmçininyerli və xarici investisiyalı MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanının yaradılmasıdır.
Bu yeniliklər ölkəmizdə biznesin təsis edilməsi praktikasının qabaqcıl beynəlxalq təcrübə nəzərə alınmaqla təkmilləşdirilməsi prosesi çərçivəsində həyata keçirilib. Bu günə biznesin qeydiyyatı prosesi üzrə Azərbaycan dünyada olan ən yaxşı təcrübələrdən birinə malikdir.
Hazırda Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiyanın İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin rəhbərlik etdiyi “Biznesə daxilolma” İşçi qrupu biznes qeydiyyatının effektivliyinin daha da artırılması üçün müvafiq Yol Xəritəsi çərçivəsində intensiv işlər aparır. Son bir ildə biznesin qeydiyyatının sadələşdirilməsi məqsədilə “Biznesə daxilolma” işçi qrupunun təşəbbüsü və müvafiq qurumların birgə səyi ilə “Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında” Azərbaycan Respublikasının Qanununda, Əmək, Mülki və İnzibati Xətalar məcəllələrində dəyişiklik edilməsi barədə qanun layihələri hazırlanaraq qəbul olunub və təsdiqlənib. Bununla da kommersiya

“Biznsə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəs 05.04.2024-cü il tarixində təsdiq olunub

qurumlarının dövlət qeydiyyatı sahəsində qüvvədə olan qanunvericiliyin beynəlxalq təcrübəyə uyğun təkmilləşdirilməsi, xarici və yerli investisiyalı məhdud məsuliyyətli cəmiyyətlərin elektron dövlət qeydiyyatı prosedurlarının eyniləşdirilməsi prosesinə başlanılıb. Xarici biznes üçün dövlət qeydiyyatının sadələşdirilməsi investisiya və biznes mühitinin cəlbediciliyinin artırılması ilə yanaşı, həmçinin ölkəmizin beynəlxalq reytinqlərdə mövqeyinə də müsbət təsir göstərəcək.

2024-cü ildə bu sahədə daha bir mühüm addım yerli və xarici investisiyalı MMC-lərin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanının yaradılmasıdır.

Məhdud məsuliyyətli cəmiyyətin təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması imkanı biznesin vaxt itkisinin əhəmiyyətli azalmasına şərait yaradır. Buna qədər yalnız yerli investisiyalı kommersiya hüquqi şəxslərin ilkin qeydiyyatı ilə bağlı prosedurlar elektron qaydada həyata keçirilirdi. “Biznesə daxilolma” işçi qrupu tərəfindən aparılan hüquqi, təşkilati və texniki tədbirlərdən sonra artıq yerli və xarici investisiyalı məhdud məsuliyyətli cəmiyyətlər təsis sənədlərində edilmiş dəyişikliklərin və qeydə alınmış faktların sonrakı dəyişikliyinin elektron qaydada qeydiyyata alınması üçün elektron ərizə ilə müraciət edə bilərlər.

2025-ci ildə bu sahədə yeni islahatların da aparılacağı gözlənilir. Kommersiya qurumlarının benefisiar mülkiyyətçiləri barədə məlumatların dövlət qeydiyyatına alınması və həmin məlumatların reyestrinin aparılması ilə bağlı işlər həyata keçirilir, müvafiq normativ sənədlər hazırlanır və qüvvəyə mindikdən sonra texniki imkanlar yaradılacaq.

Beləliklə, ölkəmizin biznesin qeydiyyatı prosesi üzrə təkmilləşməkdə olan təcrübəsi ona dünya ölkələri arasında ən yaxşılardan biri kimi öz yerini saxlamağa imkan verəcək.

İqtisadi və Sosial Araşdırmalara Yardım İctimai Birliyinin sədri Eyyub Kərimli

**Mənbə:**
https://metbuat.az/news/1516615

“Biznsə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəs 05.04.2024-cü il tarixində təsdiq olunub

## Digər saytlar və portallar


1. https://iqtisadiyyat.az/az/post/biznes-qurumlarinin-dovlet-qeydiyyatina-alinmasi-ile-bagli-yenilik-islahatlar-gozlenilir-122609
2. https://fed.az/az/vergiler/azerbaycanda-biznesin-qeydiyyati-prosesinde-muhum-yeni%CC%87li%CC%87kler-bas-veri%CC%87b-deyi%CC%87si%CC%87kli%CC%87kler-davam-edecek-219997
3. https://newscenter.az/2025/01/09/biznesin-qeydiyyati-prosesi-uzre-azerbaycan-dunyada-en-yaxsi-tecrubelerden-birine-malikdir.html
4. https://ug.news/bugun.az/azerbaycan-biznesin-qeydiyyatinda-dunyada-en-yaxsi-tecrubele
5. https://bugun.az/bugun.az/azerbaycan-biznesin-qeydiyyatinda-dunyada-en-yaxsi-tecrubele
6. https://www.startup.az/news-content/eyyub-kerimli-biznesin-qeydiyyati-prosesi-uzre-azerbaycan-dunyada-en-yaxshi-tecrubelerden-birine-malikdir-1503
7. https://bey.az/news/133096/
8. https://azia.az/cemiyyet/54040-biznesin-qeydiyyati-prosesi-uzre-azerbaycan-dunyada-en-yaxsi-tecrubelerden-birine-malikdir.html
9. https://innews.media/az/news/id-41017
10. https://www.bayraqdar.info/2025/01/10/biznesin-qeydiyyati-sah%c9%99sind%c9%99-bir-sira-%c9%99h%c9%99miyy%c9%99tli-yenilikl%c9%99r-edilib/
11. https://xalqqazeti.az/az/last-news/210158


“Biznsə daxilolma” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəs 05.04.2024-cü il tarixində təsdiq olunub

**“Əmlakın qeydiyyatı və icarəsi ” İşçi qrupunun fəaliyyəti**

**08.01.2025**

**Daşınmaz əmlakın dövlət reyestri elektronlaşdırılır - Şəffaflıq və əlçatanlıq təmin olunur**

Son illər Azərbaycanda rəqəmsallaşma və elektron xidmətlərin inkişafı geniş vüsət alıb. Bu proses dövlət idarəetməsinin şəffaflaşdırılması, operativliyin artırılması və vətəndaş məmnunluğunun təmin edilməsi məqsədilə həyata keçirilir. Xüsusilə, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən daşınmaz əmlakın dövlət reyestrinin elektronlaşdırılması həm dövlət idarəetməsində, həm də vətəndaşların gündəlik həyatında ciddi irəliləyişlərə səbəb olub. Mövzu ilə bağlı **əmlak eksperti Nüsrət İbrahimli Crossmedia.az** saytının suallarını cavablandırıb.

**- Yeni elektron xidmət bu sahədə mövcud olan ənənəvi yanaşmalardan nə ilə fərqlənir?**

- Elektron xidmətə keçməzdən əvvəl insanlar daşınmaz əmlakın dövlət reyestr xidmətində səhər tezdən gedib növbə tuturdular. Bu halda insanların həm vaxtı gedir, həm də əsəbləri pozulurdu. Ona görə də Prezident İlham Əliyevin fərmanına əsasən elektron hökumət sisteminə keçildi. Daşınmaz əmlakın dövlət reyestr xidməti də təxminən 60-a yaxın xidmət növünü elektron formaya keçirdi. Əhali, demək olar ki, bu gün daşınmaz əmlakın dövlət reyestr xidməti işçiləri ilə təmas qurmadan, birbaşa elektron xidmətə daxil olmaqla müraciətlərini bildirə bilirlər. Bu sistem insanlara çıxarışların, texniki pasportların alınmasından tutmuş bir sıra sənədləri daha asan əldə etməyə şərait yaradır. Daşınmaz əmlakın reyestr xidmətinin elektron xidmət göstərməyən sahəsi çox azdır. Əsasən ilkin sənədlərdir. Bu sənədlərdə elektron xidmətin göstərilməsi bir qədər çətin olur. Lakin zaman keçdikcə bu məsələlər də öz həllini tapacaq. Ölkədə çoxlu sayda daşınmaz əmlak əhalinin əlindədir. Onların sənədləşməsi başa çatandan sonra düşünürəm ki, artıq sözügedən problemlərin hamısı aradan qaldırılacaq. Bu xidmətlərlə bağlı əhalinin özündə də soyuq yanaşma var. Bir çox hallarda əhali sənədləri əlbəəl almaq istəyir. Ona görə də insanların bu elektron xidmətlərdən tam şəkildə yararlanması bir qədər zaman tələb edir.

“Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 27.05.2024-cü il tarixində təsdiq olunub

**- Vətəndaşlar elektron xidmətdə də ənənəvi üsulda olduğu kimi növbə tutmalı olacaq?**

- İnsanlar lazım olan əmlak sənədləri üçün istənilən zaman, istənilən yerdən bu elektron xidmətə müraciət edə bilərlər. Xidmət tam şəkildə operativdir və vaxt itkisi yox səviyyəsindədir. Sənəd sifariş edən zaman o sənədin müəyyən dönmə müddəti var. Həmin müddət tamam olduqdan sonra mərhələli differensial ödəniş qaydaları var. Xidmət haqqı və dövlət rüsumundan asılı olaraq 1-10 gün aralığında vətəndaşlar istədikləri müddətdə sənədlərini əldə edə biləcəklər.

**- Xidmətin "vahid pəncərə" prinsipi ilə fəaliyyət göstərməsi vətəndaşların işini nə dərəcədə asanlaşdıracaq?**

- Bakı şəhəri başda olmaqla ölkənin bir sıra şəhərlərində "ASAN xidmət" fəaliyyət göstərir. Vaxtilə reyestr xidməti "ASAN xidmət"də bir bölmə yaratdı. Bununla da elektron xidmət olmayan zamanlarda dövlət reyestr xidmətinə getmədən, "ASAN xidmət"də yaradılan bölməyə yaxınlaşaraq istədiyimiz suala cavab ala, yaxud istədiyimiz xidməti əldə edirdik. Həmin quruma də əvvəlcədən zəng edib, növbə saxlayaraq müraciət edilirdi. Elektron xidmət buna da son qoydu. Əhalinin bu xidmətdən razı qalması üçün maksimum şərait yaradılıb.

**- Torpaqların kateqoriyasına dair müraciətlərin elektronlaşdırılması hansı strateji məqsədlərə xidmət edir?**

- Problemlərin böyük əksəriyyəti bu sahədədir. 90-cı illərin əvvəllərindən son 3-4 ilə qədər müəyyən qrup əhalinin zəbt etdiyi torpaqlar var idi. Orada yaşayış obyektləri tikilib, yaxud da qeyri-qanuni istifadəyə götürülüb. Bu torpaqların bir çoxu kənd təsərrüfatı təyinatlıdır yaxud qeyri-yaşayış təyinatlıdır. Ancaq əhali bunu yaşayış təyinatlı torpaq kimi istifadə edir. Ona görə də artıq 10 ildən çoxdur ki, bu məsələ dövlət qurumlarının diqqət mərkəzindədir. Prezident İlham Əliyevin göstərişinə əsasən müvafiq qurumlar məsələnin həlli üçün uzun illərdir çalışırlar. Onlar 2022-ci ilə qədər bunun inventarizasiyasını qurtarmalı idilər. Daşınmaz əmlakın dövlət qeydiyyat məsələlərini həll etmək üçün sənədsiz torpaq sahələrinin inventarizasiyasını aparmalı və təqdim etməli idilər. Bu proses tam başa çatmasa da artıq bitmək üzrədir. Dövlət reyestr xidməti elektron kadastr sistemi yaradıb və ölkədə bütün torpaq sahələrinin təyinatına görə mövcud istifadəsi hansı vəziyyətdə olmasə ilə bağlı sualın cavabı artıq müəyyən dövlət qurumlarında var.

**- Bəs bu məsələ niyə öz həllini tapmır?**

- Məsələnin siyasi həlli qalıb. Bunun üçün də büdcədən böyük vəsait ayırmaq lazımdır. Lakin hazırda büdcəmiz əsasən işğaldan azad edlmiş Qarabağın bərpasına yönəlib. Düşünürəm

"Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)" indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 27.05.2024-cü il tarixində təsdiq olunub

ki, bu məsələ də sonrakı proseslərdə öz həllini tapacaq. Torpaq sahələrinin təyinatının dəyişdirilməsinin elektron xidmətə çevrilməsi bir tərəfdən bu məsələnin həllinə təkan verən layihədir. Məsələn, tutaq ki, hansısa vətəndaş torpaq zəbt edib və orada tikili inşa edib. Lakin torpaq kənd təsərrüfatı təyinatlıdır. Həmin vətəndaş elektron xidmətə müraciət edir və həmin torpaq qeydiyyata alınır. Bu torpaqların ümumilikdə qeydiyyata alınması problemin həlli prosesini sürətləndirir.
Yeri gəlmişkən sonda sizin saytınızın verdiyi imkandan istifadə edərək bir mühüm məqama toxunmaq istərdim. Ölkəmizdə həyata keçirilən davamlı iqtisadi islahatlar iqtisadiyyatın şaxələndirilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması, sahibkarlığa dövlət dəstəyi və milli iqtisadiyyatın rəqabətqabiliyyətliyinin artırılması yolu ilə iqtisadiyyatda dayanıqlı və sürətli inkişafa nail olunmasına istiqamətlənmişdir. Bu istiqamətdə nəticələr əldə olunması üçün Azərbaycan Respublikası Prezidentinin 2016-cı ildə verdiyi Sərəncamla ***Biznes mühiti və beynəlxalq reytinqlər üzrə Komissiya*** yaradılmışdır. Komissiyanın yaradılmasında əsas məqsəd sahibkarlıq fəaliyyətinin optimal gəlirliliyini təmin edəcək və rəqabət prinsiplərinə əsaslanacaq biznes mühiti yaratmaq, ölkənin investisiya cəlbediciliyini artırmaq, beynəlxalq reytinqlərdə Azərbaycanın mövqeyini daha da yaxşılaşdırmaq üçün qanunvericiliyin və inzibatçılığın təkmilləşdirilməsi, bu istiqamətdə digər zəruri tədbirlərin görülməsidir. Komissiyanın Əmlakın qeydiyyatı və icarəsi işçi qrupuna rəhbərliyi isə İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti həyata keçirir. İşçi qrupunun bu sahədə gördüyü işlər problemlərin həllinə və xidmətin daha əlçatan, şəffaf olmasına yönəlib. Bu məsələ çox önəmlidir və gerçəkləşdirilən çalışmalar sahənin inkişafında mühüm rol oynayır.

**Mənbə:**

https://crossmedia.az/az/carpaz-baxis/ekspert-elektron-s-n-dl-sm-il-bagli-halid-soyuq-yanasma-var

“Biznesin yerləşdiyi yer (əmlakın qeydiyyatı və icarəsi)” indikatoru ilə bağlı müvafiq sahədə təkmilləşmələrin və kommunikasiyanın həyata keçirilməsinə dair 2024-cü il üzrə Yol Xəritəsi 27.05.2024-cü il tarixində təsdiq olunub